AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

SƏADƏT BƏDƏL QIZI ƏLİYEVA

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ İSTEDADLI ŞAGİRDLƏRLƏ APARILAN İŞİN SİSTEMİ (I-IV SİNİFLƏRİN TƏCRÜBƏSİ ƏSASINDA)

**5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

B A K I – 2 0 1 5

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Fərrux Abbas oğlu Rüstəmov,**
*pedaqogika üzrə elmlər doktoru,*
*professor, əməkdar elm xadimi*

**Rəsmi opponentlər:** **Ramiz İbrahim oğlu Əliyev,**
*psixologiya üzrə elmlər doktoru,*
*professor, əməkdar müəllim*

**Hümeyir Hüseyn oğlu Əhmədov**
*pedaqogika üzrə elmlər doktoru*

**Aparıcı təşkilat:** Azərbaycan Dillər Universitetinin Pedaqogika kafedrası

Müdafiə "_22___" __09__ 2015-ci ildə saat _____ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az – 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" __________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **K.R.Quliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müstəqil Azərbaycan Respublikasının qurucusu ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə istedadların üzə çıxarılması və inkişafına dövlət səviyyəsində qayğı göstərmişdir. Keçən əsrin 70-ci illərindən başlayaraq istedadlı azərbaycanlı gənclər təhsillərini davam etdirmək üçün keçmiş SSRİ-nin müxtəlif regionlarında yerləşən qabaqcıl ali təhsil müəssisələrinə göndərilirdilər və qayğı göstərilən belə istedadların sayı ötən əsrin 80-ci illərində artıq iki dəfə artmışdır.

Müstəqillik dövründə isə elmi və mədəni tərəqqinin müstəqil Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyətini nəzərə alaraq istedadlı gənclərə Azərbaycan Respublikasının Prezidentinin şəxsi himayəsini, onların yaradıcılıq potensialını inkişaf etdirmək üçün dövlət qayğısı daha da artmışdır.

1998-ci ildə ümumilli liderimizin iştirakı ilə bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bunların içində ən əhəmiyyətlilərindən biri də bu idi ki, Heydər Əliyev Azərbaycandan kənarda təhsil alan mütəxəssislərlə görüş keçirdi və bu görüş ölkə üçün zəruri fəaliyyət sahələrində çalışan, haqlı olaraq, "Heydər Əliyev kadrları" adlandırılan keçmiş məzunların həyatında silinməz iz buraxdı. Məhz bu tədbirdən sonra 1970-1980-ci illərin ənənəsi bərpa edildi və istedadlı azərbaycanlı gənclərin xaricdə təhsili sahəsində ciddi addımlar atılmağa başlandı.

Bütün dövrlərdə ölkəmizdə istedadlılara göstərilən qayğını ümummilli liderimiz Heydər Əliyev belə vurğulamışdır: "Azərbaycan xalqı istedadlı xalqdır. Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını, elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər. Məhz xalqımızın istedadlarının fəaliyyəti nəticəsində və xalqımızın mənəviyyata, mədəniyyətə xüsusi qayğısı və münasibəti nəticəsində Azərbaycan xalqının böyük, gözəl mədəniyyəti, böyük elmi yaranıbdır"**.**

Son illərdə bu sahəyə diqqət daha da artmış, "Xüsusi istedada malik olan uşaqların (gəınclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" qəbul edilmişdir[1].

Müasir dövrümüzdə və bizdən öncə yazılmış ədəbiyyatlarda istedad probleminə həsr olunmuş kifayət qədər məqalələr, tədqiqat işləri, ədəbiyyatlar var. Lakin, istedad, istedadlı insan problemi daha çox psixoloji hadisə

---

[1] "Xüsusi istedada malik olan uşaqların (gəınclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)" . Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I cild, Bakı: Şərq-Qərb, 2012, s.168-175

kimi önə çəkilmiş, pedaqoqların nəzər-diqqətini bir o qədər cəlb etməmişdir. Bəlkə də bu, istedadlı uşaqlarla işin məqsədinin kifayət qədər "düzgün" qoyulmamasından irəli gəlir. Çünki düzgün və hətta dəqiq olmayan məqsəd faktiki cəhətdən istənilən işin effektini azaldır. İstedadlı uşaqlara həsr olunan işlərin sayı günü-gündən artsa da, bu problem hələ də öz həllini tam olaraq tapmamışdır.

Cəmiyyət həyatının müxtəlif mərhələlərində "istedad" və "istedadlı uşaq" anlayışlarına fərqli mövqelərdən yanaşılmışdır. Belə çoxsaylı fərqli mövqeləri ümumiləşdirərək əsasən iki qrupa ayırmaq olar. Birinci mövqeyə görə bütün sağlam uşaqlar istedadlıdır. Bunun üçün zəruri şərait yaradılmalı, təlim-tərbiyə işi düzgün qurulmalıdır. İkincilər isə hesab edirlər ki, istedad nadir hadisədir və istedadların aşkara çıxarılması, onlarla xüsusi şəraitdə iş aparılması, onların qorunması son dərəcə vacibdir.

Pedaqoji-psixoloji ədəbiyyatda istedadlı uşaqlarla bağlı çoxsaylı həyati faktlar göstərilir. "Vunderkind" adlandırılan (almanca vunder-qəribə, kind-uşaq deməkdir) bu uşaqlar əqli inkişaflarına görə həmyaşıdlarını xeyli qabaqlayırlar. Bununla belə bu uşaqların bir çoxu sonralar adi insanlar olurlar. Bunun başlıca səbəblərindən biri də onlarla tərbiyə işinin düzgün qurulmamasıdır. Professor Ə.S.Bayramov və Ə.Ə.Əlizadə yazır: "Vunderkindlər birinci növbədə uşaqdırlar və bütün başqa uşaqlar kimi yaş xüsusiyyətlərinə malikdirlər. Müəllim və tərbiyəçilər çox vaxt bu cəhəti nəzərə almır, vunderkind uşaqları az qala qeyri-adi adam kimi təqdim edirlər"[1].

Psixoloqlar "istedad" terminini daha çox təbii imkanların məcmusu kimi qəbul edirlər. Lakin, bir çox nəzəriyyələr də vardır ki, istedad anlayışını bioloji kateqoriya kimi nəzərdən keçirirlər.

İstedadın öyrənilməsinə bizim eradan əvvəl Qədim Çində, Yunanıstanda, sadə formada da olsa, başlanılıb. Lakin, istedadın elmi şəkildə öyrənilməsinə ilk dəfə XIX əsrin ortalarında İngilis psixoloqu F.Halton başlamışdır. İstedadın müəyyənləşdirilməsi ilə bağlı əsaslı, sistematik işin başlanğıcı isə C.M.Kettelin adı ilə bağlıdır. İstedadın öyrənilməsində xarici ölkə psixoloq və pedaqoqlarından F.Halton, C.Spirman, Q.Ayzenk, C.Qilford, P.Torrens, F.Barron, K.Teylor və başqaları istedadın ölçülməsi və diaqnostikası, sosial istiqamətdə M.Şerif, J.Piaje, C.Bolduin, F.Olport, K.Levin və başqaları tədqiqatlar aparmış, önəmli nəticələr almışlar. Rus psixoloqlarından L.S.Vıqotski, B.M.Teplov, N.S.Leytes, A.V.Petrovski, P.Y.Qalperin və başqaları problemi ümumnəzəri, pedaqoji, yaş xüsusiyyətləri baxımından tədqiq etmişlər.

---

[1] Ə.Bayramov, Ə.Əlizadə. Psixologiya. Bakı:Çinar-Çap, 2002, s.431

İstedad, istedadlı uşaqların təlim-tərbiyəsi, intellektual inkişafı və s. problemlər Azərbaycan alimlərinin də tədqiqatlarına cəlb olunmuşdur. Azərbaycan pedaqoq və psixoloqları istedad problemini başlıca olaraq qabiliyyətlərin psixologiyası istiqamətində tədqiq edirlər. Prof. S.İ.Seyidov və prof.V.C.Xəlilov problemi sosial-pedaqoji və sosial-psixoloji aspektdə şərh edirlər. V.C.Xəlilov yazır: "Məktəbdə şagirdlərin istedadlarını aşkar etmək bir gündə, bir ayda mümkündürsə, onlarla yaradıcılıqla məşğul olmaq, istedadlılıq səviyyəsini artırmaq, ən yüksək tələblər səviyyəsinə gətirmək bir neçə ilin müntəzəm, sistemli məşğələlərin işidir"[1].

Azərbaycan alimlərindən Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, B.N.Əliyev, E.B.Bəylərov və b. problemi müxtəlif aspektlərdə araşdırmış, tədqiqatlar aparmışlar. Bu tədqiqatları çox dəyərli hesab etmək olar.

İstedad və istedadlı uşaqların öyrənilməsi ilə bağlı Ə.Ə.Əlizadənin tədqiqatları xüsusilə diqqəti cəlb edir[2]. Ə.Ə.Əlizadə müxtəlif istiqamətli tədqiqatlarında istedad probleminə toxunur. Onun "İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər" adlı əsəri bu sahədə ən dəyərli, fundamental əsərlərdən sayılır. Bu əsərdə Ə.Ə.Əlizadə istedadı sosial, psixoloji, pedaqoji problem kimi təqdim edir. Bununla belə istedadla bağlı başlıca amil kimi yaradıcılığı götürür.

Araşdırmalar zamanı müəyyən etdik ki, istedad, istedadlı uşaq, istedadın mənşəyi, inkişaf etdirilməsi, şəxsiyyətinin formalaşdırılması, istedadın qorunması, ona təsir edən sosial-psixoloji, pedaqoji məsələlər pedaqoji-psixoloji ədəbiyyatda kifayət qədər araşdırılmamışdır. Eyni zamanda, cəmiyyət həyatında gedən proseslər, maddi resursların insan kapitalına çevrilməsi problemi xüsusilə aktuallaşdırır. Ümumtəhsil məktəblərində istedadlı şagirdlərin aşkara çıxarılması, "İstedadlı uşaqlar üçün xüsusi inkişaf proqramının hazırlanması"[3], onlarla sistemli şəkildə iş aparılması həllini tapmamış problemlərdən biridir. Ona görə də "Ümumtəhsil məktəblərində istedadlı şagirdlərlə aparılan işin sistemi" (I-IV siniflərin təcrübəsi əsasında) mövzusunda dissertasiya işi yazmağı vacib hesab etdik.

---

[1] V.Xəlilov. İstedadlı uşaqlarla işin sistemi. «Azərbaycan müəllimi» qəz.,1999, 9-15 dekabr

[2] Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004; İstedadlı uşaqlar. Psixopedaqoji məsələlər: esselər və etüdlər. Bakı: ADPU, 2005; Ə.Əlizadə, H.Əlizadə. Pedaqoji psixologiya. II kitab, Bakı: ADPU, 2010

[3] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası . Azərbaycan məktəbi. 2013, № 5, s.13

İstedadlı uşaqlar hər zaman psixoloji aspektdən araşdırılmış, onlarla pedaqoji cəhətdən xüsusi iş aparılmamışdır. İstedadlı uşaqları pedaqoji cəhətdən araşdırıb öyrənmək zərurəti tədqiqatımızın aktuallığını göstərir.

**Tədqiqatın obyekti** ümumtəhsil məktəblərində istedadlı şagirdlərlə aparılan iş prosesidir.

**Tədqiqatın predmetini** ümumtəhsil məktəblərinin ibtidai siniflərində istedadlı şagirdlərlə aparılan işin sistemi təşkil edir.

**Tədqiqatın məqsədi** kiçik yaşlı məktəblilərdə istedadın təzahür xüsusiyyətlərini, inkişaf etdirilməsi yollarını müəyyənləşdirməkdən, təlim fəaliyyəti və sinifdənxaric işlər prosesində şagirdlərin istedad səviyyəsinin müəyyənləşdirilməsindən, onlarla aparılan işin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Əgər uşağın məktəb həyatına daxil olduğu ilk gündən istedadının istiqaməti düzgün müəyyənləşdirilərsə, onun fərdi və yaş xüsusiyyətləri nəzərə alınarsa, təlim fəaliyyəti və sinifdənxaric işlər düzgün qurularsa, fəaliyyət və qarşılıqlı münasibətlər sistemi istedadın tələbləri əsasında qurularsa, istedadlı şagirdlərlə aparılan işlərə kompleks şəkildə yanaşılarsa, istedadın inkişaf dinamikası sistemli şəkildə izlənilərsə, həm onun istedadının səviyyəsi yüksələr, həm də təlim-tərbiyə işində müvəffəqiyyət qazanmaq mümkün olar.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

- ümumtəhsil məktəblərində məktəb sənədlərinin öyrənilməsi və şagirdlərə verilən tapşırıqlar vasitəsilə istedadlı şagirdləri üzə çıxartmaq;
- elmi, pedaqoji və metodik ədəbiyyatda və məktəb təcrübəsində problemin həyata keçirilməsi və həlli vəziyyətini araşdırmaq;
- istedadlı şagirdlərlə aparılan işin məzmununu müəyyənləşdirmək və başlıca istiqamətləri təhlil etmək;
- istedadlı uşaqların intellektual xüsusiyyətlərini, şəxsi xarakteristikasını öyrənmək, onların psixi inkişafının mürəkkəbliyini göstərmək;
- istedadlı uşaqların inkişafının pedaqoji əsaslarını və effektiv metodlarını üzə çıxarmaq;
- istedadlı uşaqların təhsilinin və tərbiyəsinin xüsusiyyətlərini aşkara çıxarmaq;
- istedadlı şagirdlərlə aparılan iş sisteminin yaradılması və səmərəliliyinin üzə çıxarılmasını təmin etmək, alınan nəticələri ümumiləşdirmək və onun tətbiqinə nail olmaq, sistemin təkmilləşdirilməsi üçün metodik tövsiyələr hazırlamaq və həyata keçirmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji fakt, hadisə və proseslərin, öyrənilməsi, dərk edilməsi və dəyişdirilməsi məqsədilə tətbiq edilən nəzəri müddəaların, metod və vasitələrin məcmusu təşkil edir.

**Tədqiqatın metodları** aşağıdakılardır: söhbət, müsahibə, nəzəri təhlil, müşahidə, testləşdirmə, məktəb sənədlərinin öyrənilməsi, pedaqoji eksperiment.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq Respublikamızda ibtidai sinif şagirdlərinin istedadının təşəkkülü, diaqnostikası, inkişaf dinamikası, səviyyəsi müəyyənləşdirilir, onların təlim fəaliyyətinin, sinifdənxaric işlərinin, qarşılıqlı münasibətlərinin pedaqoji əsasları öyrənilir. Bunlarla yanaşı pedaqoji prosesdə şagirdlərlə aparılan işin sistemi verilir, istedadın inkişafının imkan və yolları araşdırılır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın aparıldığı dövrlərdə ümumtəhsil məktəblərində istedadlı şagirdlərlə aparılan işin sistemi müəyyənləşdirilir, eləcə də eksperimentdən alınan nəticələr, ümumiləşdirmələr, metodik təkliflər ibtidai sinif şagirdləri ilə işləyən psixoloq və müəllimlərə tətbiq edilərək əməli kömək edə bilməsidir. Tədqiqatdan irəli gələn ideyalar pedaqogika elminin nəzəriyyəsini zənginləşdirilməsində mühüm rol oynayacaqdır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada müəllifin elmi-nəzəri və metodoloji mövqeyi, qabaqcıl pedaqoji təcrübəyə istinad etməsi, aldığı nəticələrin, işlədiyi sistemin pedaqoji universitetlərin pedaqogika, psixologiya, sosiologiya, fəlsəfə ixtisasına yiyələnən tələbələr, doktorant və dissertantlar, elmi işçilər, psixoloqlar, müəllim və məktəb rəhbərləri tərəfindən tətbiq edilə bilər. Bir sözlə dissertasiyada irəli sürülən elmi ideya və təkliflər, fikirlər, alınan nəticələr ibtidai sinif müəllimlərinə zəruri istiqamət verəcək və pedaqogikanın nəzəriyyəsinin qismən də olsa zənginləşdirəcək, işin elmi əsaslar üzərində qurulmasına imkan verəcəkdir.

**Müdafiəyə təqdim olunan müddəalar:**

- istedadlı şagirdlərin təlim müvəffəqiyyəti və istedadının inkişafı ilk növbədə onun istiqamətinin düzgün müəyyənləşdirilməsindən asılıdır;
- istedadlı şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması və istiqamətləndirilməsi onun dinamik inkişafını təmin edir, təlimin səmərəliliyini yüksəldir;
- istedadlı şagirdlərin yaşıdları ilə qarşılıqlı münasibətləri spesifik xüsusiyyət daşıdığından bu münasibətlər düzgün qurulduqda onlarınm təlim müvəffəqiyyəti də yüksəlir;
- istedadlı şagirdlərlə pedaqoji işin təşkilində ayrı-ayrı cəhətlər yox, kompleks yanaşma aparıldıqda, daha səmərəli nəticələr əldə olunur;
- istedadlı şagirdlərlə təlim-tərbiyə sahəsində ailə və məktəbin əlbir işi istedadın inkişafına yönəldikdə, onun şəxsiyyəti düzgün formalaşır.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi seminarlarında, gənc tədqiqatçıların respublika elmi konfranslarında, respublikanın bir sıra ümumtəhsil məktəblərində məruzə, diskussiya, çıxışlar formasında təqdim olunmuş, müzakirə edilmişdir.

Dissertasiyanın əsas məzmunu 9 məqalə (o cümlədən 2-si xaricdə) və 8 tezis (o cümlədən 2-si xaricdə) şəklində çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, 7 yarımfəsli özündə birləşdirən 2 fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**«Giriş»**də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsədi, vəzifələri, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, metodoloji əsası aydınlaşdırılır, müdafiəyə təqdim olunan müddəalar verilir.

Dissertasiya işinin **«İstedad probleminin mahiyyəti və ədəbiyyatda qoyuluşu»** adlı I fəsli üç yarımfəsildən ibarətdir. ***«İstedad anlayışının mahiyyəti»*** adlanan birinci yarımfəsildə istedad, qabiliyyət, bacarıq və bu kimi anlayışların biri-birindən fərqli cəhətləri aydınlaşdırılır. İstedadın ən yüksək inkişaf etmiş səviyyəsi - dahilikdən bəhs edilir. İstedadın tiplərə - yaradıcı istedad, ümumi intellektual istedad, akademik istedad, bədii istedad, sosial istedad və istedadın idman tipi kimi tiplərə bölünməsi və bunların açıqlaması verilir.

Fəslin ikinci yarımfəsli ***«İstedad probleminin mövcud vəziyyəti və pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu»*** adlanır. Burada istedadın təşəkkülü, onun müəyyənləşdirilməsi, istedadlı insanların önə çəkilməsinin tarixindən söz açılır, istedad probleminə həsr olunmuş elmi-metodik ədəbiyyatlar təhlilə cəlb edilir, istedad problemi ilə bağlı müxtəlif istiqamətli araşdırmalardan bəhs olunur.

Rus tədqiqatçılarından N.S.Leytes, A.V.Petrovski, A.M.Matyuşkin, azərbaycanlı tədqiqatçılar Ə.Ə.Əlizadə, E.B.Bəylərovun problemlə bağlı fikir və ideyaları tədqiq və təhlil olunur.

Bütün bu dövrlərə nəzər salsaq görərik ki, istedad problemi cox zaman psixoloji hadisə kimi araşdırılmış, pedaqoqların bir o qədər də nəzər-diqqətini cəlb etməmişdir. Artıq son zamanlar istedad probleminin pedaqoji-psixoloji hadisə kimi önə çəkilməsi labüd hal almışdır.

I fəslin III yarımfəsli ***«Kiçikyaşlı məktəblilərdə istedadın təzahürü və inkişaf etdirilməsi yolları»*** adlanır.

"İstedadlı" sözünün özü olduqca ziddiyyətlidir. İstedadlı dedikdə şüurumuzda parlaq, talantlı və ona qarşı adi, qabiliyyətsiz, fərasətsiz və standart həyatı olan insan obrazı yaranır. Əgər söhbət uşaqlar haqqında gedirsə, onlara "istedadlı" və "istedadsız" damğası vurmaq düzgün deyil, bütün uşaqlar istedadlıdırlar.

Hər bir insan üçün elə fəaliyyət növü, elə iş rejimi və ya onun elə vasitələri tapılıb ki, orada onun fərdi bacarıqlarının hansısa müsbət tərəfləri üzə çıxarıla bilər. Bu o deməkdir ki, heç nəyə qabiliyyəti olmayan insanlar olmur.

Bu yarımfəsildə kiçikyaşlı məktəblilərdə istedadın özünü göstərmə formalarından bəhs edilir. Bəzi kiçikyaşlı uşaqlarda istedad parlaq formada özünü göstərsə də, belə uşaqlar böyüdükdən sonra heç bir uğur qazana bilmirlər. Bəzi uşaqlar isə əksinə, kiçik yaşda heç bir fərqli xüsusiyyətləri olmasa da gələcəkdə böyük dahiyə çevrilirlər. Belə iki fərqli cəhətə malik uşaqların yaş xüsusiyyətləri araşdırılır.

Uşaqların əqli zəkasının üzə çıxması onun uşaqlıq həyatının çox vacib imkanları ilə bağlıdır. Erkən yaşlarında bacarıqların özünü aydın büruzə verməməsi uşaqların maraqlarının dəyişkən və qeyri-sabit olması ilə izah olunur. Onlar həm təhsildə, həm də sərbəst seçilmiş məşğələlərdə orta müvəffəqiyyət qazanırlar. Onlardan bəziləri hələ gündəlik adi işlərdə özlərini tapmayıblar, öz fərdi bacarıqlarını göstərmək üçün daha əlverişli situasiyalara düşməyiblər. Qabiliyyətlərin öz-özünə təzahürü uşağın fəaliyyət və maraqlarını ən gözlənilməz istiqamətlərə yönəldə bilər: ixtiraçılığa, bədii, yaxud elmi yaradıcılığa, insan fəaliyyətinin başqa sahələrinə. Uşağın istedadı uzun müddət heç üzə çıxmaya bilər, yaxud da həmişəlik açılmamış qalar. Hər şeydən əvvəl bu, ondan asılıdır ki, uşaq içərisində olduğu mühitdə özünü tapa bilmir, istedadının imkan verdiyi fəaliyyətlə qarşılaşmır. Hansısa bir situasiya və ya təsir qəflətən onun içində yatmış yaradıcı qüvvələri oyadar, onları hərəkətə gətirər və talantlı şəxsiyyət əmələ gətirə bilər.

Hər bir uşağın inkişaf tempi fərdidir, bu prosesdə sıçramalar və ləngimələr ola bilər, lakin, hər bir yaş dövrünün öz müxtəlif və fərqli üstünlükləri var.

Lakin ən əlverişli şəraitlərdə belə insanın qabiliyyətləri öz-özünə inkişaf edə bilmir. Nəzərə almaq lazımdır ki, əgər uşaq yaşlarında bacarıqların inkişafında tərbiyə və təlim mühüm rol oynayırsa, sonradan özünütərbiyə böyük əhəmiyyətə malik olur

Təcrübə göstərir ki, ümumtəhsil məktəblərində şagirdlərin bacarıq, qabiliyyət və istedadlarının inkişaf etdirilməsinə 1-ci sinifdən başlamaq lazımdır. Bu məqsədlə iki yoldan istifadə etmək daha zəruri hesab olunur.

1. Uşaqları birinci sinfə qəbul edərkən onların təlimə hazırlıqlarının yoxlanılması, onun nəticələri əsasında müxtəlif səviyyəli siniflərin komplektləşdirilməsi və hər sinfə uyğun təlim müddətinin, tədris proqramının və təlim metodlarının müəyyənləşdirilməsi.

2. İbtidai siniflərdə ayrı-ayrı fənlərin tədrisi prosesində şagirdlərin bacarıq, qabiliyyət və istedadlarının aşkara çıxarılması və təlimin fərdiləşdirilməsi yolu ilə onların inkişaf etdirilməsi

Kiçik yaşlı uşaqlarda istedadı görmək, inkişaf etdirmək, bir sözlə, belə uşaqları yaxşı başa düşmək, anlamaq üçün, hər şeydən əvvəl, peşəkar pedaqoq kimi uşaq psixologiyasını, yaş xüsusiyyətlərini bilmək və nəzərə almaq lazımdır.

Tədqiqatın ikinci fəsli **«Təlim fəaliyyəti və qarşılıqlı münasibətlər sistemində istedadlı şagirdlərlə işin sistemi»** adlanır. Fəslin ***"İstedadlı uşaqların müəyyənləşdirilməsi və onlarla işin təşkili xüsusiyyətləri"*** adlanan birinci yarımfəslində istedadın üzə çıxmasına, inkişaf etməsinə təsir edən amillərdən – mühit, irsiyyət və təlim-tərbiyədən bəhs olunur. Bəzi tədqiqatçıların fikrincə, insanın cəmiyyətdə özünün istedadlı şəxs kimi təsdiq etməsində irsiyyət amilinin rolu böyükdür. Bu fikri F.Qalton, Kettel, Termen, Koks və başqaları müdafiə etmişdir. N.S.Leytes isə istedadın üzə çıxmasında irsiyyət amilini əsassız saymışdır. Onun fikrincə, talantın, istedadın üzə çıxması həyatın və fəaliyyətin ictimai şərtlərindən asılıdır.

Dünya psixoloqları arasında istedadın fitri olması, irsən keçməsi barədə fikir geniş yer tutur. Lakin, "intellektual istedad şəxsiyyətin ancaq genlərindən asılıdır, mühit və tərbiyə onun təşəkkülünə o qədər də təsir etmir" fikri artıq köhnəlmişdir. Qərb alimləri istedadın fitriliyini sübut etmək üçün məşhur musiqiçilər, alimlər nəslindən misallar gətirirlər. Lakin, istedadın təşəkkülü təbii imkanlarla yanaşı daha artıq əlverişli ictimai mühit və təlim-tərbiyə şəraitindən asılıdır.

Bütün insanlar istedad nişanələri, istedad əlamətləri ilə doğulurlar. Lakin, istedad müəyyən ictimai şəraitdə, fəal fəaliyyətlə məşğul olan zaman inkişaf edə bilər. Ən yüksək istedad nişanələri olan insan belə müvafiq fəaliyyətlə məşğul olmazsa, onun bacarıqları inkişaf etməyəcəkdir.

II yarımfəsil ***"Təlim prosesində istedadlı uşaqlarla aparılan işin səciyyəsi"*** adlanır.

Ümumtəhsil məktəblərinin I-IV sinif şagirdləri ilə "İstedadlı şagirdlərin üzə çıxarılması, onların istedadının inkişaf etdirilməsi ilə bağlı aparılan iş" 2009-cu ildə başlayıb 2011-ci ildə (2 tədris ili müddəti) yekunlaşmışdır. Eksperiment Bakı şəhərində fəaliyyət göstərən orta məktəblərdə - Zəngi liseyi, Elitar gimnaziya, 308 və 286 –li məktəblərdə aparılmışdır.

Eksperimentin müəyyənedici mərhələsində məqsəd şagirdlərin bacarıqlarına, istedadına, qabiliyyətinə bələd olmaq, istedadlı şagirdləri aşkar edib üzə çıxarmaq olmuşdur. Eksperimentin ilkin mərhələsində müəyyən edilmişdir ki, tədqiqata cəlb edilən məktəblilərin bir çoxunda müəyyən qabiliyyətlər olsa da, onlar aşkara çıxarılıb inkişaf etdirilməyib.

Eksperimental və kontrol sinif şagirdləri ilə aparılan ilkin yoxlamaların nəticələri cədvəl 1-də öz əksini tapmışdır.

**Eksperimental və kontrol siniflərdə aparılmış ilkin yoxlamaların nəticələri**

**Cədvəl 1.**

| | SİNİFLƏR | | Şagirdlərin sayı | CAVABLAR | | |
|---|---|---|---|---|---|---|
| | | | | Yüksək | Orta | Aşağı |
| Bakı şəhəri Zəngi liseyi | Kont.<br>Eksp. | 3a<br>3b | 30<br>29 | 6(20%)<br>5(17,2%) | 9(30%)<br>12(41,4%) | 15(50%)<br>12(41,4%) |
| Bakı şəhəri Elitar gimnaziya | Kont.<br>Eksp. | 3a<br>3b | 26<br>29 | 6(23%)<br>6(20,7%) | 8(30,8%)<br>8(27,6%) | 12(46,2%)<br>15(51,7%) |
| Bakı şəhəri 308№-li məktəb | Kont.<br>Eksp. | 3a<br>3b | 27<br>29 | 4(14,8%)<br>5(17,3%) | 8(29,6%)<br>8(27,6%) | 15(55,6%)<br>16(55,1%) |
| Bakı şəhəri 286 №-li məktəb | Kont.<br>Eksp. | 3a<br>3b | 28<br>28 | 6(21,4%)<br>5(17,7%) | 9(32,2%)<br>8(28,7%) | 13(46,4%)<br>15(53,6%) |

Cədvəldən göründüyü kimi Bakı şəhəri Zəngi liseyinin kontrol kimi götürülən 3[a] sinfində təhsil alan 30 şagirddən 6 nəfəri (20%) yüksək, 9 nəfəri (30%) orta, 15 nəfəri (50%) aşağı səviyyəli cavab vermiş, həmin məktəbin eksperimental kimi götürülən 3[b] sinfində təhsil 29 şagirddən 5 nəfəri (17,2%) yüksək, 12 nəfəri (41,4%) orta, 12 nəfəri (41,4%) aşağı səviyyəli cavablar, Bakı şəhər Elitar gimnaziyanın kontrol kimi götürülən 3[a] sinifində 26 şagirddən 6 nəfəri (23%) yüksək, 8 nəfəri (30,8%) orta, 12 nəfəri(46,2%) aşağı səviyyəli, yenə həmin məktəbin eksperimental 3b sinfində 29 şagirddən 6 nəfəri (20,7%) yüksək, 8 nəfəri (27,6%) orta, 15 nəfəri (51,7%) aşağı səviyyəli cavablar vermişlər. Bakı şəhər 308№li məktəbdə kontrol kimi götürülən 3[a] sinfində təhsil alan 27 şagirddən 4 nəfəri (14,8%) yüksək, 8 nəfəri (29,6%) orta, 15 nəfəri (55,6%) aşağı səviyyəli, eksperimental kimi götürülən 3[b] sinfində 29 şagirddən 5 nəfəri (17,3%) yüksək, 8 nəfəri (27,6%) orta, 16 nəfəri (55,1%) aşağı səviyyəli cavablar, Bakı şəhəri 286№li məktəbin kontrol sinfi olan 3[a] sinfinin 28 şagirdindən 6 nəfəri (21,4%) yüksək, 9 nəfəri (32,2%) orta, 13 (46,4%) aşağı, eksperimental 3[b] sinfində 28 şagirddən 5 nəfəri (17,7%) yüksək, 8 nəfəri (28,7%) orta, 15 nəfəri (53,6%) aşağı səviyyəli cavablar vermişlər.

Eksperimentdən əvvəl göründüyü kimi bütün tədris müəssisələrində şagirdlərin iştirakı, onlardan alınan cavab səviyyəsi demək olar ki, təxminən eyni olmuşdur.

Eksperimentin ikinci – yaradıcı-dəyişdirici mərhələsində tərəfimizdən ibtidai sinif şagirdlərində istedadın aşkara çıxarılıb inkişaf etdirilməsi məqsədilə konkret metodika işlənib hazırlanmışdır. Təklif etdiyimiz metodika əsasında eksperimental siniflərdə məktəblilərin istedadının üzə çıxarılması, inkişaf etdirilməsi istiqamətində sistemli iş aparılmışdır.

İlk növbədə, şagirdlərdə istedadın aşkara çıxarılmasına imkan verən suallar, testlər toplusu hazırlanmış, xüsusi psixoloqun iştirakı ilə tərəfimizdən aparılmışdır. Daha sonra aşkar edilmiş istedadlı şagirdlərin istedadını inkişaf etdirmək məqsədilə xüsusi olaraq "Kiçik Akademiya" yaradılmış və burada 2 il müddətində ixtisaslı psixoloqlar və müəllimlərlə birlikdə səylə iş aparılmışdır.

Eksperimantal və kontrol sinif şagirdləri ilə aparılmış yekun yoxlamaların nəticələri aşağıdakı kimi olmuşdur.

**Eksperimental və kontrol siniflərdə aparılmış ilkin yoxlamaların nəticələri**

**Cədvəl 2.**

| | SİNİFLƏR | | Şagirdlərin sayı | CAVABLAR | | |
|---|---|---|---|---|---|---|
| | | | | Yüksək | Orta | Aşağı |
| Bakı şəhəri Zəngi liseyi | Kont. | 3a | 30 | 6(20%) | 9(30%) | 15(50%) |
| | Eksp. | 3b | 29 | 10(34,5%) | 15(51,7%) | 4(13,8%) |
| Bakı şəhəri Elitar gim-naziya | Kont. | 3a | 26 | 7(26,9%) | 8(30,8%) | 11(42,3%) |
| | Eksp. | 3b | 29 | 11(37,9%) | 11(37,9%) | 7(24,1%) |
| Bakı şəhəri 308№-li məktəb | Kont. | 3a | 27 | 3(11,1%) | 10(37%) | 14(51,9%) |
| | Eksp. | 3b | 29 | 9(31%) | 12(41,4%) | 8(27,6%) |
| Bakı şəhəri 286 №-li məktəb | Kont. | 3a | 28 | 6(21,4%) | 11(39,3%) | 11(39,3%) |
| | | 3b | 28 | 8(28,6%) | 14(50%) | 6(21,4%) |

Cədvəldən göründüyü kimi Bakı şəhəri Zəngi liseyinin kontrol kimi götürülən $3^a$ sinfində təhsil alan 30 şagirddən 6 nəfəri (20%) yüksək, 9 nəfəri (30%) orta, 15 nəfəri (50%) aşağı səviyyəli cavab vermiş, həmin məktəbin eksperimental kimi götürülən $3^b$ sinfində təhsil alan 29 şagirddən 10 nəfəri (34,5%) yüksək, 15 nəfəri (51,7%) orta, 4 nəfəri (13,8%) aşağı səviyyəli cavablar, Bakı şəhəri Elitar gimnaziyanın kontrol kimi götürülən $3^a$ sinfində 26 şagirddən 7 nəfəri (26,9%) yüksək, 8 nəfəri (30,8%) orta, 11 nəfəri (42,3%) aşağı səviyyəli, yenə həmin məktəbin eksperimental $3^b$ sinfində 29 şagirddən 11 nəfəri (37,9%) yüksək, 11 nəfəri (37,9%) orta, 7 nəfəri (24,1%) aşağı səviyyəli cavablar vermişlər. Bakı şəhəri 308№li məktəbdə kontrol kimi götürülən $3^a$ sinfində təhsil alan 27 şagirddən 3 nəfəri (11,1%) yüksək, 10 nəfəri (37%) orta, 14 nəfəri (51,9%) aşağı

səviyyəli, eksperimental kimi götürülən 3[b] sinfində 29 şagirddən 9 nəfəri (31%) yüksək, 12 nəfəri (41,4%) orta, 8 nəfəri (27,6%) aşağı səviyyəli cavablar, Bakı şəhəri 286№li məktəbin kontrol sinfi olan 3[a] sinfinin 28 şagirdindən 6 nəfəri (21,4%) yüksək, 11 nəfəri (39,3%) orta, 11 (39,3%) aşağı, eksperimental 3[b] sinfində 28 şagirddən 8 nəfəri (28,6%) yüksək, 14 nəfəri (50%) orta, 6 nəfəri (21,4%) aşağı səviyyəli cavablar vermişlər.

Təcrübənin yekununda "Kiçik Akademiya"ya cəlb olunmuş şagirdlərlə digər kontrol sinif şagirdlərinin qabiliyyətləri müqayisə edilmiş, məlum olmuşdur ki, "Kiçik Akademiya" üzvlərinin istedadı, bilik və bacarıqları daha qabarıq şəkildə özünü büruzə verir. Alınan nəticələr təlim prosesinin düzgün qurulduğunu və səmərəli təşkil edildiyini sübut edir. İlkin və son nəticələrin müqayisəli təhlili eksperimentə cəlb etdiyimiz siniflərdə şagirdlərin ümumi səviyyələrinin xeyli yüksəlməsini sübut edir. Əgər Bakı şəhərinin Zəngi liseyində və Elitar gimnaziyada eksperimentə cəlb edilmiş 58 şagirddən eksperimentdən əvvəl 11 nəfəri (18,96%) yüksək, 20 nəfəri (34,48%) orta, 27 nəfəri (46,55%) aşağı səviyyəli cavab vermişdisə, eksperimentdən sonra 21 nəfər (36,21%) yüksək, 26 nəfər (44,83%) orta, 11 nəfər (18,96%) isə aşağı səviyyəli cavab vermişdir. Həmin iki məktəbin kontrol siniflərində 56 şagirddən 12 nəfəri (21,42%) yüksək, 17 nəfər (30,35%) orta, 27 nəfəri (48,22%) aşağı cavab vermişdisə eksperimentdən sonra bu rəqəmlərdə də müəyyən dəyişikliklər olmuşdur.

II fəslin III yarımfəsli ***"İstedadlı uşaqlarla müəllimin qarşılıqlı münasibətləri"*** adlanır. Bu yarımfəsildə müəllimin təlim prosesində aparıcı faktor kimi göstərilməsi, müəllimə verilən tələblərdən bəhs olunur. İstedadlı uşaqlarla işləyən müəllimlərin dərs yükü, həmin uşaqların oxuduqları siniflərdə şagirdlərin sayı, təlim formaları və tərbiyə işləri istedadların imkanlarına uyğun olaraq qurulmalıdır.

İstedadlı uşaqlarla iş zamanı müəllim aşağıdakı fərq incəliklərini diqqətdən qaçırmamalıdır:

- hər şeydən əvvəl, müəllim istedadlı uşaqların oxumaq, öyrənmək bacarığının formalaşmasına diqqət yetirməlidir, daima onların müəllim rolunda iştirak etməsinə imkan yaratmalıdır;
- çoxlu sayda yaradıcı tapşırıqlar verməli, müzakirələrdə iştirakını təmin etməlidir;
- məşğələlərdə sərbəst ünsiyyət qurmaq üçün müsbət mühit yaradılmalıdır;
- müəllim şagirdin informasiyaları qazanmaq sərbəstliyinə, müstəqil işləmək istəyinə hörmətlə yanaşmalıdır;
- şagirdi fəallığa, inadkarlığa həvəsləndirməlidir;

- şagirdin özünüqiymətləndirməsini təmin etməlidir;
- uşağa problemin əhəmiyyətini başa salmalıdır;
- müəllimin şagirdə verdiyi tapşırıq yaradıcı olmalı, öyrənilən problemi araşdırmağı, analiz, sübutlar və nəticə çıxarmağı onlara aşılamalıdır;
- şagirddə daha çox praktik bacarıqlar, lüğət və məlumat kitabçaları ilə iş görmə bacarığı formalaşdırılmalıdır.

II fəslin IV yarımfəsli ***"Sinifdənxaric işlər prosesində istedadın nəzərə alınması"*** adlanır.

Şagird şəxsiyyətinin formalaşmasında təlim fəaliyyəti özünəməxsus rol oynayır. Buna görə də müxtəlif tipli məktəblər – gimnaziyalar, kolleclərlə yanaşı bir sıra hallarda istedadlı uşaqlar üçün xüsusi məktəblər də olmalıdır. Yəni nadir istedada malik olan uşaqlara məhz xüsusi məktəblər kömək etməlidir. Belə məktəblərdə uşağın maraq və meylinə uyğun fakultativ məşğələlər, müxtəlif dərnəklər, studiyalar, məktəblilərin fənn olimpiadaları, şagird özfəaliyyət dərnəklərinin müsabiqələri təşkil edilməlidir. Yəni hər bir istedadlı uşağın yaradıcılıq imkanlarından vaxtında və dolğun surətdə istifadə etmək lazımdır. Bu tədbirləri həyata keçirməklə istedadlı uşaqların inkişafının ləngiməsinin qarşısı alına bilər.

Bir sözlə, dərsdənkənar işin forma və metodları içərisində istedadlı şagirdlərin geniş imkanlarının üzə çıxarılması və inkişafında müxtəlif fakultativ dərnəklər, müsabiqələr, intellektual marafon, şagirdlərin məktəbdənkənar müsabiqə və olimpiadalarda iştiraka cəlb olunması və əlbəttə ki, onların dərsdənkənar tədqiqat işlərinin sistemi üstünlük təşkil etməlidir. Məktəbdə sinifdənxaric tərbiyəvi iş sistemi istedadlı məktəblilərin inkişafına təsir edən, gizli istedadın və qabiliyyətlərin üzə çıxarılmasına təsir göstərən ən vacib amildir.

Apardığımız tədqiqat aşağıdakı **nəticələrə** gəlməyə əsas verdi.

1. Filosoflar, psixoloqlar və pedaqoqlar istedad anlayışı ilə bağlı kifayət qədər tədqiqatlar aparsalar da, bu günə qədər hamının qəbul etdiyi vahid bir rəyə gələ bilməmişlər. Onlardan bəziləri istedadı təbii imkanların məcmusu, digərləri isə fəaliyyətin məhsulu kimi qəbul edir. Belə fərqli mövqelərlə yanaşı hamı tərəfindən qəbul edilən fikir belədir ki, istedad üzərində sistemli, məqsədyönlü şəkildə iş aparıldıqda inkişaf edir və istedad sahibi öz sahəsində böyük nailiyyətlər qazanır.

2. Mövcud pedaqoji-psixoloji ədəbiyyattın təhlili göstərir ki, istedad problemi daha çox psixoloqlar tərəfindən araşdırılmış, pedaqoqlar isə bu problemə az diqqət yetirmişlər. Ayrı-ayrı məqalələrdə isə problemin yalnız bir cəhəti öyrənilmişdir. Pedaqoqlar tərəfindən sistemli, kompleks tədqiqat aparılmamışdır.

3. Bir çox əsrlər boyu istedadlılığa sosial-pedaqoji təcrübədən bir qədər ayrı baxılıb. Bu, birinci növbədə, ona görə baş verirdi ki, təhsil sistemində bu problemin axtarışı tələb olunmurdu. Tədqiqatçıların əsas diqqəti istedadlılığın özünün şəxsi təhsil, yaxud sosial-psixoloji hadisə kimi fenomen olmasına deyil, onun əmələ gəlməsi (ilahi, yaxud təbiət tərəfindən qazanılması) probleminə yönəlmişdir. İstedadın əsas növləri intellektual və yaradıcı istedad sayılırdı.

XX əsrin əvvəllərində alimlərin baxışlarında əsaslı dəyişikliklər yarandı. Psixoloqların, pedaqoqların çox hissəsi yüksək istedadın təzahürünü elmi yaradıcılıqda və elmi təfəkkürdə görməyə meyl edirdilər.

4. Müasir pedaqogikada və təhsil təcrübəsində istedadlı uşaqların təliminə, hər şeydən əvvəl, qlobal pedaqoji məsələ kimi baxılır. Çünki fəlsəfi aspektdən yanaşsaq demək olar ki, dahi, talant, istedad ayrıca bir insana və ya onun doğulduğu məkana aid deyil, onlar planetin nailiyyətidir, sərvətidir. Buna görə də bütün istedadlı uşaqlar harada doğulub yaşamalarından asılı olmayaraq təhsil sferasında müdafiə olunmalıdırlar.

5. Tədqiqatlar göstərdi ki, orta səviyyədə inkişaf edən uşaqların sayı istedadlı uşaqların sayından çoxdur. Lakin, bu o demək deyil ki, elmi ədəbiyyatda təsvir olunan istedadlı uşaqlar real həyatda mövcud deyillər, bu, bir daha onu təsdiq edir ki, istedadlı uşaqlar o qədər də çox deyil. Bununla bağlı olaraq belə uşaqların inkişafına kömək etmək və onları müdafiə etmək lazımdır. Böyüklər – müəllimlər, tərbiyəçilər, valideynlər bu istiqamətdə işləməlidirlər.

6. Müəyyənləşdirildi ki, "istedad", "istedadlı uşaqlar" ifadəsi olduqca şərtidir: onlar faktiki olaraq verilən yaş mərhələsində əqli üstünlükləri bildirirlər. Qəti olaraq bildirsək "istedadlı" ifadəsi yalnız o hallarda işlədilə bilər ki, uşağın xüsusi qabiliyyətləri vaxt keçdikcə böyük nailiyyətlər qazanmaq üçün real zəmin olsun. Lakin, o illərdə ki, hələ fərdilik yaşdan kifayət qədər ayrılmayıb, bu zaman istedadlılıq müvəqqəti meydana çıxır və bu haqda mühakimə yürütmək olduqca çətindir. Bütün ölçüdə nəzərə almaq lazımdır ki, uşaqlar haqqında söhbət gedərkən onların intellektlərinin təzahürləri və əqli bacarıqlarının daha tez-tez görünməsi açılan daxili potensialın yalnız bir hissəsi haqqında əvvəlcədən xəbər verə bilər. Onların qeyri-adi bacarıqlarının cücərtilərini inkişaf etdirmək, qorumaq, onlara qayğı göstərməkdən imtina etmək olmaz. Çox vacibdir ki, uşaq təlimə yüksək həssaslıqla yanaşsın, onun erkən yaradıcı təzahürünün və inkişafının qarşısı alınmasın, o, gücünün vaxtında sərf olunması və tam açılması üçün mühüm şərtlərdən məhrum olmasın.

7. Öyrənildi ki, kiçik məktəb yaşı dövründə, eləcə də sonralar istedad özünü açıq, aşkar büruzə verə bilər. Bununla yanaşı istedad müəyyən müddət ərzində gizli formada qala bilər. Belədə bir çox hallarda hətta uşağın istedadlı olmaması barədə səhv nəticələrə gəlinə bilər. Bu isə uşağın inkişafı üçün çox zəruri olan kömək və müdafiədən məhrum olması ilə başa çatar. Bununla belə, uşaq vaxtı nəinki istedadsız, hətta orta səviyyədən də aşağı qabiliyyətli hesab edilənlər sonralar böyük uğurlar qazanıblar.

8. Tədqiqat nəticəsində müəyyənləşdirildi ki, bir çox hallarda müəllim və valideynlər texniki bilik, bacarıq və vərdişlərlə qabiliyyət və istedadı səhv salırlar. Texniki bacarığı, vərdişi olmayan uşaqlar bəzən istedadsız hesab olunur. Eləcə də əksinə, texniki bacarığı olan (yazmağı, hesablamağı, oxumağı bacaran) uşaqlar yüksək intellekt sahibi hesab edilir.

9. Aydınlaşdırıldı ki, müəllimlər istedadın bəzi növlərinə malik olan, xüsusilə yaradıcı istedadı olan uşaqları müəyyənləşdirməkdə çətinlik çəkirlər və çox vaxt onları qabiliyyətsizlər, nizam-intizamı pozanlar sırasına aid edirlər. Eyni zamanda, standart təlim formaları və proqramlar belə uşaqlar üçün maraqsız, faydasız hesab olunur. Elə bu səbəbdən də tədricən onların təlim müvəffəqiyyətində geriləmələr baş verir. Beləliklə, çoxsaylı istedadlı uşaqlar inkişafdan qalır, öz potensiallarını reallaşdıra bilmirlər.

10. Müəllimlər ümumi intellektual tipə malik olan uşaqları üzə çıxarmaqda çox da çətinlik çəkmirlər. Bu uşaqlar informasiyanı, əsas anlayışları tez və asanlıqla mənimsəyir, yadda saxlayırlar. Bu isə onlara ayrı-ayrı sahələr üzrə yüksək bilik qazanmağa, parlaq nəticələr əldə etməyə imkan verir. Onlar çətin hesab olunan əlavə ədəbiyyat oxuyur, bəzən bu mənbələrə tənqidi yanaşmağı bacarırlar.

11. İstedadlı uşaqlar bir çox hallarda qarşılıqlı münasibət və ünsiyyət qurmaqda çətinlik çəkirlər. Bəzən onların istedadı qəribəliklərin təzahürü kimi qəbul edilir. Ola bilsin ki, istedadlı kiçik məktəbli yaşıdlarından fərqlənsin və bu da onlarla birgə fəaliyyət göstərməyə maneə olsun. Bəzən onların davranışları qeyri-standartlığı ilə seçilir və ətrafdakılara qəribə təsir bağışlayır. Kiçik məktəblinin güclü təxəyyülü, öz aləmi, reallıqda olmayan dostları və s. onları ətrafdakılardan təcrid edir. Ona görə də böyüklər – valideynlər, müəllimlər istedadlı uşağın özünəməxsus xüsusiyyətlərini daim diqqətdə saxlamalı, onların qəribəliklərinə hörmətlə yanaşmalı, yaşıdlarından qorumalıdırlar.

12. İstedadın vaxtında üzə çıxarılması və onlarla xüsusi metodikalarla, proqramlarla işlənilməsi vacibdir. Müəyyənləşdirilmişdir ki, bilik, bacarıq və vərdişlər qazanmış istedadlı şagirdlər adətən sinif yoldaşlarını

xeyli qabaqlayırlar. Başqaları hərfləri, saymağı öyrəndikləri vaxt onlar xeyli çətin əməliyyatları yerinə yetirilər. Belədə "işsiz qalan" şagird ya kənar işlərlə məşğul olur, ya da tədricən dərsə marağını itirir. Bu da müəyyən müddətdən sonra şagirddə inkişafın zəifləməsi, tənbəlliyin yaranması ilə nəticələnir. Ona görə də müəllim onlara fərdi qaydada yanaşmalı, "darıxmağa" qoymamalıdır.

13. İstedadın vaxtında müəyyənləşdirilməməsi və istedada müvafiq işin səmərəli şəkildə qurulmaması senzitivlik dövrünün itirilməsi deməkdir. Sonralar itirilmiş vaxt inkişafın ləngiməsi ilə nəticələnir, bir sıra keyfiyyətləri kompensasiya etmək mümkün olmur.

Əlverişli şərait, düzgün təşkil edilmiş iş istedadlar yetişdirməsə də, qabiliyyətlərin yüksək inkişafını təmin edir. Bunu tədqiqatın gedişində apardığımız müşahidələr, nümunə kimi göstərdiyimiz məktəblərdə şagirdlərin müvəffəqiyyət faizi də bir daha təsdiq edir.

14. İstedadlı uşaqların təlimi ilə bağlı iki mövqe mövcuddur. Birinci mövqeyə görə bu uşaqlarla diferensiallaşdırılmış təlim, ikinci mövqeyə görə ümumi qaydada təlim daha əlverişlidir. Bizim, eləcə də digər tədqiqatçıların gəldikləri qənaət belədir ki, birinci halda yüksək nəticələr əldə edilsə belə uşaqlar sonralar sosial mövqelərində problemlə üzləşirlər. Onlar kollektiv fəaliyyətə uyğunlaşa bilmir, ünsiyyətdə çətinlik çəkirlər. İkinci halda isə ümumi fəaliyyət istedadın inkişafına maneə olur.

15. İstedadlı şagirdlərin üzləşdikləri problemlər içərisində qarşılıqlı münasibətlərin qurulması xüsusi yer tutur. Münasibətlər düzgün qurulmadıqda belə uşaqlar adətən özlərinə qapanır, qaradinməz olurlar. Bəzən tərslik edərək dərs oxumaqdan imtina edirlər.

16. Kiçik məktəblilərin istedadının diaqnostikası və inkişafında sinifdənxaric tədbirlər geniş imkanlara malikdir. Dərs prosesi ilə müqayisədə sinifdənxaric tədbirlər şagirdlərə daha çox sərbəstliyin verilməsi, seçim imkanının əhatəliliyi baxımından fərqlənir. Burada eyni zamanda şagirdlərin maraq və meyllərinin nəzərə alınması da mümkündür.

Müəyyənləşdirildi ki, sinifdənxaric tədbirlərlə təlim fəaliyyəti uzlaşdırıldıqda həm təlimin səmərəliliyi yüksəlir, həm də şagirdin özünüreallaşdırılması üçün zəmin yaranır. Təbii ki, bütün bunlar müəllimin pedaqoji ustalığı və şəxsi keyfiyyətləri ilə sıx bağlıdır.

Dissertasiyanın məzmunu müəllifin dərc olunmuş aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:

1. İstedadlı şagirdlərin aşkara çıxarılmasında qarşıya çıxan problemlər / Aspirantların və gənc tədqiqatçıların XIII respublika elmi konfransının materialları, Bakı, 2009, s.286-287

2. İstedadlı uşaqların üzə çıxarılması və onlarla aparılan iş // Bakı Slavyan Universiteti, Elmi əsərlər, 2009, №1, s.293-297

3. İstedadlı şagirdlərlə işin sistemi: tarixilik və müasirlik // Azərbaycan Müəllimlər İnstitutunun Xəbərləri, 2009, №2, s.45-48

4. İstedad və qabiliyyət anlayışlarının mahiyyəti haqqında // Pedaqoji Universitet Xəbərləri, 2009, №1, s.220-223

5. İstedadlılığın inkişafının mühitdən asılılığı // Dil və ədəbiyyat, 2009, 2 (68), s.210-211

6. Проблемы, возникающие при выявлении талантливых детей // Новые технологии в образовании, Воронеж, 2009, №2, с.17-19

7. İstedad və qabiliyyət anlayışının mahiyyəti haqqında / Doktorantların və gənc tədqiqatçıların XIV respublika elmi konfransının materialları, Bakı, 2010, s.71

8. İstedad probleminin pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu // Dil və ədəbiyyat, 2010, 2 (73), s.309-311

9. İstedadlı uşaqlarla aparılan işin xüsusiyyətləri / Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı tezisləri, Qafqaz universiteti, 06-07 may 2010, s.411-412

10. Роль учителя в образовании талантливых учеников // Хабаршы вестник. Серия «Педагогические науки», Алматы, №2 (30), 2011, с.97-100

11. Влияние внеклассных работ на развитие одаренных учеников / Развитие профессиональной компетентности специалистов в области реабилитации и образования инвалидов. Материалы научно-практической конференции, Санкт-Петербург, 2012, с.191-192

12. İstedadlı şagirdlərlə müəllimin işinin xüsusiyyətləri // Pedaqoji Universitet Xəbərləri, 2012, №3, s.285-288

13. İstedadlı uşaqların təhsilində Heydər Əliyevin xüsusi rolu // Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı. Qafqaz Universiteti, 26-27 aprel 2013, s.660-661

14. Sinifdənxaric işlər prosesində istedadlı uşaqların nəzərə alınması / Ümumilli lider Heydər Əliyevin 91 illik yubileyinə həsr olunmuş "Cəmiyyət və təhsilin inkişaf strategiyası" VI Respublika elmi-praktik konfransının materialları, Bakı, 5 may 2014, s.377-379

15. Организация образования одаренных детей / Образование на протяжении всей жизни: разнообразие идей, концепций, форм, методов, технологий. Том 1. Международная монография по итогам акции «Неделя образования взрослых» 2012-2014 г.г, Санкт-Петербург, 2014, с.268-269

16. Heydər Əliyevin təhsil-tərbiyə siyasətində istedadlıların yeri / Ümumilli lider Heydər Əliyevin 92 illik yubileyinə həsr olunmuş "Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması" mövzusunda VII Respublika elmi-praktik konfransı. Bakı, 7 may 2015, s.433

17. Müəllimin istedadlı şagirdlərlə görəcəyi işin məzmunu / Müəllim hazırlama siyasəti və problemləri V Beynəlxalq konfrans, 30 aprel - 02 may 2015, s.350-353

**Алиева Саадат Бадал гызы**

**Система работы проведенной с одаренными учениками в общеобразовательных школах**
**( на основе практики в I-IV классах)**

## РЕЗЮМЕ

В современное время вопросы выявления одаренных детей, вопросы создания системы работы с ними являются актуальными проблемами, интересующие психологов и педагогов в нашей республике и во всем мире.

Данная диссертация состоит из введения, двух глав, выводов и списка использованной литературы.

Во введении обоснована актуальность проблемы, определены объект, предмет, цели и задачи, методологические основы, научная новизна, теоретическая и практическая значимость исследования, выносимые на защиту основные положения, указываются использованные методы исследования.

Первая глава – в этой главе речь идет о типах талантов, разнонаправленном изучении проблемы таланта и формах само выявления таланта малолетних школьников. Темп развития каждого ребенка так же индивидуален как сама личность каждого и здесь разговор идет о разнообразии преимуществ каждого возрастного периода, значимости воспитания и учебы в развитии способностей в детском возрасте.

Вторая глава посвящена системе комплексной работы с одаренными и талантливыми учениками при процессе учебы. Выявления одаренных учеников, применяемые для развития их таланта методы требуют от преподавателя особых навыков, педагогического умения.

В конце диссертации представлены общие выводы и рекомендации, полученные на основании проведенного исследования.

**Aliyeva Saadat Badal**

## System of case conducted with talented pupils of general schools
## (On the basis of practice of I-IV classes)

## SUMMARY

Reveal of talented children worldwide and in our republic, in modern life and adjusment of case conducted with them systematically are actual problems interesting psychologist and pedagogist.

The given dissertation consist of the introduction, two heads, conclusions and the list of the used literature.

In introduction the problem urgency is proved, the object, a subject, the purpose and problems are defined, methodological bases, scientific novelty, the theoretical and practical importance the researches which are taken out on protection substantive provisions, are specified the used methods of research.

First chapter – in this chapter, types of talent, different directed researches in connection with talent problem, talent emergence in minor-aged school children is discussed. Each child as his (her) identity is different, his (her) development speed is different also and it is also discussed on its various and different advantages of each age period, significance of education and discipline in development of abilities in childhood.

In second chapter, it is discussed on complex case matter conducted with talented pupil during training activity. Teacher is requested special ability and pedagogical practice on reveal of talented pupils, methods used for development of their talent.

In the end of the dissertation the general conclusions and the recommendations received on the basis of carried out research are presented.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**Алиева Саадат Бадал гызы**

# Система работы проведенной с одаренными учениками в общеобразовательных школах ( на основе практики в I-IV классах)

5804.01 – Общая педагогика, история
педагогики и образования

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание учёной степени доктора философии по педагогике**

**Б А К У – 2 0 1 5**